# MÜNDƏRİCAT


ÖN SÖZ YERİNƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7
"...HƏR ÖMÜR BİR TAMAŞADI" . . . . . . . . . . . . . . . . . . . . 8

ALLAH BİZİM ALLAHDI,
KEÇƏR GÜNAHIMIZDAN
*(film və tamaşalara yazılmış şeir və mahnı mətnlərindən seçmələr)*

"EVLƏNMƏK İSTƏYİRƏM" ("Papaq") filmindən
Ömürdən uzun yollar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 10
Mənim balam, bu dünyayla oynama . . . . . . . . . . . . . . . . 11
Papaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
Hamam mahnısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13

"KİŞİ SÖZÜ" filmindən
Dünyada tək bircə söz var . . . . . . . . . . . . . . . . . . . . . . 14
Dağlar kürək-kürəyədi . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15

"ƏZABLI YOLLAR" ("Məlikməmməd") filmindən
Üç yol mahnısı
1. "Bu yol cənnət yoludu" . . . . . . . . . . . . . . . . . . . . . . . 16
2. "Bu yol, bu yol, bu yoldu" . . . . . . . . . . . . . . . . . . . . . 17
3. "Vay, bu yoldan min həzər" . . . . . . . . . . . . . . . . . . . . 18
Döyüş mahnısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Bizə bu dünyanı kim bağışlayıb? . . . . . . . . . . . . . . . . . . 20
Adamların zayı çıxıb . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21

"HACI QARA" filmindən
Aldatdılar uşaq kimi başımı . . . . . . . . . . . . . . . . . . . . . 22

A müştəri, becid gəl ........ 23
Müsəlmandı, müsəlman ........ 24
Fələk bizi yıxdı atdan........ 25

"GİRİŞMƏ, ÖLDÜRƏR" filmindən
Bu dünyanın hər sifəti oyundu ........ 26

"İŞARƏNİ DƏNİZDƏN GÖZLƏYİN" filmindən
Hər şey əldən çıxır bu yer üzündə ........ 27

"XÜSUSİ VƏZİYYƏT" filmindən
Qalır........ 28

"AĞ ATLI OĞLAN" filmindən
Ey ağ atlı igid, gəl ........ 29
Səni dərdim qorusun ........ 31

"TƏRSİNƏ ÇEVRİLƏN DÜNYA" filmindən
Bir ev var ........ 32
Ver mənə öz ağrını ........ 33

"ONUN BƏLALI SEVGİSİ" filmindən
Bağışla ........ 34

"BAĞIŞLA" televiziya tamaşasından
Bu qatarın dalınca baxma........ 35

"ÜÇ GÖRÜŞ" televiziya filmindən
Nə yaxşı, tanıdıq bir-birimizi........ 36

"TIQ-TIQ XANIM" cizgi filmindən
Dost gəzirəm özümə........ 37
Çəməndə çiçək qoşa ........ 38

**"SƏHƏRƏ İNAN" televiziya filmindən**

İnan, bu dünyada səhərə inan . . . . . . . . . . . . . . . . . . . . . 39

**"KAMANÇA" televiziya tamaşasından**

Dinmə, atam, azmışıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
Bir qapı varsa, de açaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43

**"AC HƏRİFLƏR" televiziya tamaşasından**

Allah bizim Allahdı, keçər günahımızdan . . . . . . . . . . . . . . 44

**"BU MEYDAN, BU ŞEYTAN" tamaşasından**

Cənnət mahnısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Şeytan olmaq yordu məni . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Şeytan baba, döz bir az . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Bir də insan olmaram . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
Xeyri nədi? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 51
Pul olsa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Milçək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 53
Nə kişisən, sən ay kişi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Quyruq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55

**"MÜSYÖ JORDAN VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH" tamaşasından**

Novruz gəlib, yaz gəlib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Adam otaqda darıxır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
Bu torpağı aparaydım Parisə . . . . . . . . . . . . . . . . . . . . . . 59
Aparar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Bütün arvadların fəryad əlindən . . . . . . . . . . . . . . . . . . . 61
Kişilər cilovludu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62
Gözəl Paris, gözəl Paris! . . . . . . . . . . . . . . . . . . . . . . . . . 63
Gedim adam olum - gəlim . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Cin gəlir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
Yazıq Paris, yazıq Paris! . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66
Qoyma, Paris dağıldı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Toy mahnısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69

## BAŞ TUTMAYAN FİLM VƏ TAMAŞALARDAN ŞEİRLƏR


Balıqçı, çək tilovunu........................72
Bu kişinin beş oğlu var........................73
A zalım, insafın hanı?........................74
Hər şeyi üfürən kişi........................75
Sifətim könlümə yatmır........................76
Bir üzü örtülü, bir üzü açıq........................77
Mən bura özümü görməyə gəldim........................78
Qalsın........................79
Olsa........................80
Nə kədərli, nə şən oldum........................81
Su var daşın canında........................82
Qaçmağa bir yerimiz yox........................83
Gecədi........................84
Gecə keçib, sübh açılıb........................85
Kölgələr ölkəsində........................86
Pul........................87

Ac günlərin üç mahnısı

1. Bu süfrənin acları........................88
2. Quşlar ölür acından........................89
3. Qılınclar da paslanıb........................90

Bu doğan günün altında........................91
Səhər nəğməsi........................92
Kağızdan gül kəsən qoca........................93
Mənə qucaq-qucaq gül gətirirdin........................94
İki gündü yağış yağır........................95
Bazar nəğməsi........................96
Hər şey mən deyən olsaydı........................98

**DƏRS** ***(ikipərdəli tragikomediya)***........................99

***

(Vaqif İbrahimoğluna)

Hər ömür bir tamaşadı,
Axırına gül də düşür.
Gözümüzdən yaş da düşür,
Alnımızdan tər də düşür.

Gah ovçu, gah ov oluruq,
Gah qovub, gah qovuluruq,
Bu gün tordan qaçan balıq
Sabah tora bir də düşür.

Göz yaşını silən kimi,
Dərdə-qəmə gülən kimi,
Dünya nədi - bilən kimi
Ömür bitir, pərdə düşür...

# "EVLƏNMƏK İSTƏYİRƏM" ("PAPAQ") FİLMİNDƏN (1983)

Bəstəkar: Cahangir Cahangirov

## Ömürdən uzun yollar

Dəli kimi hara çapır bu yollar?
Sağa çapır, sola çapır bu yollar.
Dostu dostdan, yarı yardan ayırır,
Bir-birini necə tapır bu yollar?

Bu yollarda nə yorulduq, nə yatdıq,
Nə də yatan baxtımızı oyatdıq.
Bu yolları yaxşı saxla yadında,
Bu dünyaya, bəlkə, bir də qayıtdıq.

Bu yollar bizim yollar,
Qaraldı gözüm, yollar,
Çoxların yola saldı
Ömürdən uzun yollar.

# Mənim balam, bu dünyayla oynama

Mənim balam, bu dünyayla oynama,
Sən cavansan, dünya qoca dünyadı.
Düşmən nədi, dost evini dost yıxar,
Bilən bilir, dünya necə dünyadı.

Ömrə, günə etibar yox əzəldən,
Bir də dönüb yarpaq olmaz xəzəldən,
Beşiyindən bizə tabut düzəldən,
Bələyindən kəfən biçən dünyadı.

Kim nə anlar bu zalımın işindən,
Çoxlarını keçiribdi dişindən,
Möhkəm yapış papağından, başından,
Başdan papaq alıb qaçan dünyadı.

# Papaq

Əlinin papağını Vəli qoydu başına,
Bir qurunun oduna yandı neçə yaşımız.

Papaq nədi, dedilər, təki məcməyilərdə
Papaq kimi dikəlsin plovumuz, aşımız.

Dünya ölüm-itimdi, papaqsız baş yetimdi,
Papaq nədi? O bizim atamız, qardaşımız.

Fələyin qapazından papaq keçsə xirtdəyə,
Vay o gündən, papağı dikəltməyə başımız.

Baş qurbandı papağa, papaq başdan ucadı,
Diriykən papağımız, öləndə başdaşımız...

# Hamam mahnısı

Biri gələr, biri gedər hamamda,
Canımızın kiri gedər hamamda.
Soyunmuşam, yox üstümdə xəncərim.
Xumarlanım, bir balaca dincəlim.
Bəy oğluyam, tay deyiləm baqqala,
Ay kisəçi, gəl belimi ovxala.

Vay, vay, ax bu necə quluncdu?
Vay, vay, qulunc deyil, qılıncdı.
Ölü gələn diri gedər hamamda,
Canımızın kiri gedər hamamda.
Biri gələr, biri gedər hamamda.

## "KİŞİ SÖZÜ" FİLMİNDƏN (1987)

Bəstəkar: Vasif Adıgözəlov

# Dünyada tək bircə söz var

Deyirlər, söz sözü çəkər,
Çəkmək olmur nadan sözü.
Mən neynirəm üstü şəkər,
Altı zəhər dadan sözü.

Yarı doğru, yarı yalan,
Yarı yağlı, yarı yavan,
Oda atsan, odda yanan,
Suya atsan, batan sözü.

Deməyin ki, neçə söz var,
Kobud söz var, incə söz var,
Dünyada tək bircə söz var;
Kişi sözü, adam sözü.

# Dağlar kürək-kürəyədi

Dağlar kürək-kürəyədi,
Dağlara külək neyləyər?
Quzeydə qar üşüyəndə
Güneydə çiçək neyləyər?

Başı qarlı dağ ucadı,
Yaşı tamam tapmacadı,
Dağlar fələkdən qocadı,
Dağlara fələk neyləyər?

Dərdi nədi o cavanın?
Yanıqlı tütək çalanın?
Eşqə düşən xan çobanın
Dərdinə tütək neyləyər?!

## "ƏZABLI YOLLAR" ("MƏLİKMƏMMƏD") FİLMİNDƏN (1982)

Bəstəkar: Tofiq Quliyev

### Üç yol mahnısı

1

Bu yol cənnət yoludu,
gözəllərlə doludu.
Hurilər, nə hurilər,
ölü görsə, dirilər.
Ömür nədi, heçdi, heç,
bir ayağın burdadı,
bir ayağın gordadı.
Kim qayıtsa bu yoldan,
ağlı yoxdu, gicdi, gic.
Naz da burda, saz da burda,
Dərd də burda, kef də burda, burdadı.

## 2

Bu yol, bu yol, bu yoldu,
süfrəsi boldu, boldu.
Min cürədi bişmişi,
aş üstündə kişmişi.
Bəs bu nədi? Səbzədi.
Bəs bu nədi? Xurmadı.
Vur bədənə kababı,
iç üstündən şərabı.
Dişin varsa, buyur gəl,
ac qarnını doyur gəl.
Hər nə desən, hər nə yesən, burdadı.

3

Vay, bu yoldan min həzər,
Gedir gedər-gəlməzə.
Bura divlər yurdudu,
Hər biri bir ordudu.
Macal yoxdu qaçmağa,
Heç ağzını açmağa.
Sən verincə salamı
Divlər udur adamı.
Çəkən kimi dişinə
Adam gedir işinə.
Hər tikəsi bu boyda,
Lap yekəsi qulağından xırdadı,
Ölüm də, zülüm də burdadı, burdadı...

# Döyüş mahnısı

Bu necə vurhavurdu,
tamaşaya göz gərək.
Bu meydanda düşmənə
qan udduraq biz gərək.

Göz qırpmağa macal yox,
heç nəfəs dərmək olmur.
Düşmənləri bacar - yıx,
yıxıldın, durmaq olmur.

Düşmən çoxdu, deyəsən,
hərəyə beşi düşər.
Bir tutarlı yumruğa
beşinin leşi düşər.

Dəyirmandı bu meydan,
unu yox, qanı çıxar.
İgidin bığı çıxar,
qorxağın canı çıxar.

Göz qırpmağa macal yox,
heç nəfəs dərmək olmur.
Düşmənləri bacar - yıx,
yıxıldın, durmaq olmur.

# Bizə bu dünyanı kim bağışlayıb?

(qardaşların mahnısı)

Bizə bu dünyanı kim bağışlayıb,
Otunu, gülünü, daşını verib.
Sevinc bağışlayıb, qəm bağışlayıb,
Ağlayan gözlərin yaşını verib.

Ağladan kimlərdi, kimlər ağlayır?
Vaxt olur, meydandan qaçanlar udur.
Divlər oğrayanı divlər oğrayır,
Siçanlar udanı siçanlar udur.

Bir qulaq dincliyi yoxdu dünyanın,
Hamımız keşikdə dursaq da, azdı.
Oğrusu, quldurı çoxdu dünyanın,
Yüz qardaş, min qardaş olsaq da, azdı.

## Adamların zayı çıxıb

(divlərin mahnısı)

Necə dözək belə dərdə?!
Yaşamağa qoymur bizi.
Bələkdəki bəbələr də
İt yerinə saymır bizi.

Div deyilik, oyuncağıq,
Dərdimizi demək olmur.
Adamların zayı çıxıb,
Adamları yemək olmur.

Ovlayırıq görən kimi;
Yavan düşür, yağlı düşür.
Adam var ki, yeyən kimi
Qarnımıza ağrı düşür.

Qalınlaşıb insan gönü,
Ağzımızda diş qalmayıb.
Hamı yeyir bir-birini,
Daha bizlik iş qalmayıb.

Div deyilik, oyuncağıq,
Dərdimizi demək olmur.
Adamların zayı çıxıb,
Adamları yemək olmur.

## "HACI QARA" FİLMİNDƏN (2002)

Bəstəkar: Arif Məlikov

### Aldatdılar uşaq kimi başımı

(Hacı Qaranın mahnısı)

Fələk saldı başıma öz daşını,
Aldatdılar uşaq kimi başımı,
Öz boyuma ölçdüm özüm arşını,
Qəbir qazdım öz-özümə, ay gədə,
Vur başına, vur dizinə, ay gədə!

Nəyim vardı, bir anda getdi əldən,
"Qazanc" dedim, mayam da getdi əldən,
Getdi, abır-həyam da getdi əldən,
Düşdüm axır bu pis günə, ay gədə,
Vur başına, vur dizinə, ay gədə!

Dur, a gədə, malın tərifin eylə,
Ölsəm əgər, burdaca dəfn eylə,
Bu parçadan kəs, mənə kəfən eylə,
Vur başına, vur dizinə, ay gədə,
Qəbir qazdım öz-özümə, ay gədə!..

# A müştəri, becid gəl

(Kərəməlinin mahnısı)

A müştəri, becid gəl,
Satıldı şilə, çit, gəl!

Yan ötmə belə maldan,
Qiyməti su qiyməti.
Bu mala bu bazarda
Kim qoyar bu qiyməti?

A müştəri, becid gəl,
Satıldı şilə, çit, gəl!

Satan bizik, alan sən,
Alverimiz var olsun.
Bu dükandan yan ötsən,
Canına azar olsun!

A müştəri, becid gəl,
Satıldı şilə, çit, gəl!..

## Müsəlmandı, müsəlman

(Ohanın mahnısı)

Düşmənimiz kimdi, kim?
Müsəlmandı, müsəlman.
Yüz ildi, min ildi ki,
Müsəlmandı, müsəlman.

Adını nə desən de,
Əli, Vəli, Həsən de,
Oğru de, başkəsən de,
Müsəlmandı, müsəlman.

Odur gedən hər yola,
Ondan gəlir hər bəla,
Əz başını, tapdala,
Müsəlmandı, müsəlman.

Dinən kimi vur qapaz,
Neyləsən də, azdır, az,
Türməyə sal, qəbrə bas,
Müsəlmandı, müsəlman.

# Fələk bizi yıxdı atdan

(bəylərin mahnısı)

Fələk bizi yıxdı atdan,
Bəyliyimiz çıxdı yaddan,
O əvvəlki toy-büsatdan
Nə qaldı ki bizə, bəylər?

Niyə belə zay olmuşuq,
Gədələrə tay olmuşuq,
Kimə desək bəy olmuşuq,
İnanmaz bu sözə, bəylər.

Qızlara bax gözəl-göyçək,
Pulun yoxsa, gözünü çək,
Bığımıza dən düşəcək
Subay gəzə-gəzə, bəylər.

Tanrı bizə yar olsun kaş,
Cibimizdə pul olsun kaş,
Təzə toylar qurulsun kaş,
Biz də olaq təzə bəylər.

# "GİRİŞMƏ, ÖLDÜRƏR" FİLMİNDƏN (1991)

Bəstəkar: Cavanşir Quliyev

## Bu dünyanın hər sifəti oyundu

(qumar mahnısı)

Bu dünyanın hər sifəti oyundu,
Namərd üzü, mərd sifəti oyundu,
Udan qurddu, uduzanlar qoyundu,
Bu oyunda kim kimədi, kim kimə?
Şimşimədi, şimşimədi, şimşimə.

Bu qapıdan ayıq girən dəmlənir,
Yavaş-yavaş həriflənir, xamlanır,
Varı-yoxu buğda kimi dənlənir,
Qurban olur bir balaca him-cimə,
Şimşimədi, şimşimədi, şimşimə.

Bu qapıdan girmə, evin yıxılar,
Başın qalar, amma cibin qırxılar,
Qoyun olan qoyun kimi qırxılar,
Qoyunsansa, qaqaş, qurddan incimə,
Şimşimədi, şimşimədi, şimşimə.

# "İşarəni dənizdən gözləyin" filmindən (1986)

## Hər şey əldən çıxır bu yer üzündə

Hər şey əldən çıxır bu yer üzündə,
Tutmaq istədiyin əl əldən çıxır.
Dünyadan əl üzüb, qəbrini qazıb
Yatmaq istədiyin yer əldən çıxır.

Dil-dil ötənlərin tutulur dili,
Nə zilin bəmi var, nə bəmin zili,
Gülün bülbülü yox, bülbülün gülü,
Bülbül əldən çıxır, gül əldən çıxır.

Dünyaya baxdıqca gözün yaş olur,
Bu cürə ömürdən ölüm xoş olur,
Bu dünya gah balıq, gah da quş olur,
Hər əldən sürüşür, hər əldən çıxır...

## "XÜSUSİ VƏZİYYƏT" FİLMİNDƏN (1986)

Bəstəkar: Tofiq Quliyev

### Qalır

Bu dünyada zaman-zaman
əlimizin işi qalır.
Əkdiyimiz ağaclardan
biri solur, beşi qalır.

Baxıb doymur gözlərimiz,
ulduz dolu göylər qalır.
Çəkdiyimiz keflər gedir,
tikdiyimiz evlər qalır.

Qocaltdıqca illər bizi
yenə min-min uşaq qalır.
Bu dünyada hərəmizin
yandırdığı çıraq qalır.

Alnımızın axır təri,
ovcumuzda qabar qalır.
Çəkdiyimiz dərdlər gedir,
çəkdiyimiz yollar qalır...

# "AĞ ATLI OĞLAN" FİLMİNDƏN (1995)

Bəstəkar: Oqtay Rəcəbov

## Ey ağ atlı igid, gəl

Batmışıq qan gölündə,
Qalmışıq qəm əlində,
Yağı düşmən əlində,
Səsimizi eşit, gəl,
Ey ağ atlı igid, gəl.

Nağıllardan çapıb gəl,
Qılıncını qapıb gəl,
Külək kimi qopub gəl,
Küləkdən də becid gəl,
Ey ağ atlı igid, gəl.

Bu torpaqda gül açmır,
Körpələr də dil açmır,
Tanrı bizə yol açmır,
Sənə qalıb ümid, gəl,
Ey ağ atlı igid, gəl.

Quşa dönsün ağ at, gəl,
Tax şimşəkdən qanad, gəl,
Yatmışıqsa, oyat gəl,
Ölmüşüksə, dirilt gəl,
Ey ağ atlı igid, gəl!..

# Səni dərdim qorusun

Ağlayanın tapılsa,
nə var ölməkdən gözəl.
Nə var şəhid qanına
batan köynəkdən gözəl.

Gəl ağlama sən belə,
göz yaşların qurusun.
Mən öldüm, indən belə
səni dərdim qorusun.

Başın üstə quş kimi
ruhum uçub dolanar.
Bir də sevib-sevilsən,
Adımı ver balana.

Gəl ağlama sən belə,
göz yaşların qurusun.
Mən öldüm, indən belə
səni adım qorusun.

# "TƏRSİNƏ ÇEVRİLƏN DÜNYA" FİLMİNDƏN (2011)

Bəstəkar: Oqtay Rəcəbov

## Bir ev var

Hərdən yorar səni ömür də, gün də,
Hər günün öz dərdi, öz əzabı var.
Yaxşı ki, həmişə bu yer üzündə
Yolunu gözləyən doğma qapı var.

Bir ev var, işıqlı, isti, mehriban,
Yoluna boylanar hər pəncərəsi.
Orda ovundurar səni hər zaman
Bir qadın nəfəsi, bir körpə səsi.

Sənə çox görməsin Tanrı bu evi,
Onun işığını, odunu qoru.
Hər dərddən, bəladan qoru bu evi,
O səni qorusun, sən onu qoru.

Qovarsan qəlbindən qəmi, kədəri,
Orda sevilərsən, orda sevərsən.
Uzaq yol gəlmisən, buyur içəri,
Bu ev səninkidi, sən bu evinsən.

# Ver mənə öz ağrını

(ata haqqında mahnı)

Zülmətdə işıq kimi gözümə görün yenə,
Sənə sarı uşaq kimi yüyürüm bu gün yenə.

Qayatək möhkəm idin, niyə torpaq oldun sən?
Bu dünyanın budağından qopan yarpaq oldun sən.

Ver mənə öz ağrını, dönüm sənin ağrın olum,
Bas məni öz bağrına, yenə sənin oğlun olum.

Bu nə zalım bir həsrətdi, səndən acı nağıl qaldı,
Bir günahsız ata getdi, bir günahkar oğul qaldı.

Ürəyinin yanğısına niyə su səpəmmədim,
Bir şirin söz deyib sənə gözlərindən öpəmmədim.

Ver mənə öz ağrını, dönüm sənin ağrın olum,
Bas məni öz bağrına, yenə sənin oğlun olum.

## "ONUN BƏLALI SEVGİSİ" FİLMİNDƏN (1980)

Bəstəkar: Emin Sabitoğlu

### Bağışla

Bir ötən sevgini unuda bilsəm,
Könlümü sevginlə ovuda bilsəm,
Bir axşam yanına qayıda bilsəm,
Bağışla, bağışla, məni bağışla.

Bağışla, qapını döyə bilmirəm,
Bağışla, "sevirəm" deyə bilmirəm,
Özüm də bilmirəm niyə, bilmirəm,
Bağışla, bağışla, məni bağışla.

Bir sönən ocağın külünə yanma,
Ömrümün ayına-ilinə yanma,
Desəm ki, "sevmirəm", yenə inanma,
Bağışla, bağışla, məni bağışla.

# "BAĞIŞLA" TELEVİZİYA TAMAŞASINDAN (1983)

Bəstəkar: Mobil Babayev

## Bu qatarın dalınca baxma

Məni aldı səndən, getdi bu qatar,
Göydə bircə ovuc tüstüsü qaldı.
Saçında əlimin tumarı qaldı,
Ovcunda əlimin istisi qaldı.

Uzaqdan, yaxından keçər bu qatar,
Gecələr yuxundan keçər bu qatar.
Gülsən, gülüşünü doğrayar, biçər,
Ah çəksən, ahından keçər bu qatar.

Baxma, bu qatarın dalınca baxma,
Baxma, gözlərini yorunca baxma.
Qaşların altında cüt yarpaq kimi
Gözlərin saralıb-solunca baxma.

Mən getdim, dünya ki qaldı yerində.
Dünyanın payızı, baharı qaldı.
Ovcunda əlimin istisi qaldı,
Saçında əlimin tumarı qaldı...

# "ÜÇ GÖRÜŞ" TELEVİZİYA FİLMİNDƏN (2012)

Bəstəkar: Oqtay Rəcəbov

## Nə yaxşı, tanıdıq bir-birimizi

Bu, bəxtin işiydi, Tanrı buyurdu,
Gəldik bir küçədə üz-üzə biz də.
Mən niyə dayandım? Sən niyə durdun?
Niyə yan keçmədik bir-birimizdən?

Əsdi yarpaq kimi birdən ürəyim,
Bunu səndən qabaq o küçə bildi.
Mən hardan bildim ki, sənsən taleyim?
Sənin bəxtin mənəm, sən necə bildin?

Bir duru, dumduru büllur bulaqda
Daşlar bir-birini tanıyan kimi,
Bir yaşıl, yamyaşıl hündür budaqda
Quşlar bir-birini tanıyan kimi
Nə yaxşı, tanıdıq bir-birimizi...

# "TIQ-TIQ XANIM" CİZGİ FİLMİNDƏN (1974)

Bəstəkar: Ramiz Mirişli

## Dost gəzirəm özümə

Sürmə çəkdim gözümə,
Düşdüm çölün düzünə,
Dost gəzirəm özümə,
Dost, gəl, hardasan?
Tez gəl, hardasan?
Tıq-tıq-tıq.

Baxdım, baxdım güzgüyə,
Baxdım, baxdım özgəyə,
Qorxdum, qorxdum göz dəyə,
Ax, gözələm mən,
Bax, gözələm mən.
Tıq-tıq-tıq.

# Çəməndə çiçək qoşa

Çəməndə çiçək qoşa,
Göydə kəpənək qoşa,
Suda balıq tək deyil,
Yuvada böcək qoşa.

Bir körpə böcəyəm mən,
Çiçəkdən göyçəyəm mən,
Dost tapmadım, tapmadım,
Təkcəyəm, təkcəyəm mən.

# "SƏHƏRƏ İNAN" TELEVİZİYA FİLMİNDƏN (2010)

Bəstəkar: Firudin Allahverdi

## İnan, bu dünyada səhərə inan

Yaman uzun çəkdi bu zülmət gecə,
Gözə görünmədi ulduz da, Ay da.
Bir doğma üz üçün darıxdım necə,
Kimsə kaş qapımı döyə bu hayda,
Mənə bir xoş xəbər deyə bu hayda,
Kimsə kaş qapımı döyə bu hayda,
Amma hamı yatıb, amma nə fayda...

Bütün gecələrin səhərdi sonu,
İnan, bu dünyada səhərə inan.
Sabah bir xoş xəbər gözləyir səni,
İnan o xoş sözə, xəbərə inan.
Nə qəmə, nə də ki kədərə inan,
İnan bir xoş sözə, xəbərə inan,
İnan, bu dünyada səhərə inan.

...Yenə gün çıxacaq, dünya güləcək,
Hər yan başdan-başa işıq olacaq.
Hamı bir-birini birdən görəcək,
Hamı bir-birinə aşiq olacaq.
Hamı dünənkindən qəşəng olacaq,
Hər şey dünənkindən yaxşı olacaq,
Sabah bugünkündən yaxşı olacaq.

## "KAMANÇA" TELEVİZİYA TAMAŞASINDAN (1993)

Bəstəkar: Cavanşir Quliyev

### Dinmə, atam, azmışıq

Dinmə, atam, azmışıq,
Yolu tamam azmışıq.

Ver özünü xəlvətə,
Səs eləmə, ölmüşük.
Biz gedirdik cənnətə, -
Cəhənnəmə gəlmişik.
Burda nə aş, nə bozbaş,
Qır qazanı qaynayır.
Mələklər yoxdu, qardaş,
İfritələr oynayır.

Dinmə, atam, azmışıq,
Yolu tamam azmışıq.

Biz axı tək deyildik,
Bu yolla çoxdu gələn.
Ayılıb bir də gördük
Arxada yoxdu gələn.

Qır qazanı qaynayır,
Bəs indi biz neyləyək?
O qırdan bir az çıxart,
Saqqız kimi çeynəyək.

Dinmə, atam, azmışıq,
Yolu tamam azmışıq...

# Bir qapı varsa, de açaq

Dünyanın, kim bilir, Allah,
Neçənci qatında bizik.
Bir gözucu bizə də bax,
Ayağın altında bizik.

Bir qapı varsa, de açaq,
Qanadımız varsa, uçaq,
Dünyada, bəlkə, ən qoçaq,
Ən yazıq adam da bizik.

Ən başda, ayaqda bizik,
Zülmət də, çıraq da bizik,
Ən dərdi oyaq da bizik,
Ən bəxti yatan da bizik.

# "AC HƏRİFLƏR" TELEVİZİYA TAMAŞASINDAN (1994)

Bəstəkar: Cavanşir Quliyev

## Allah bizim Allahdı, keçər günahımızdan

Çoxdandı ki, əl üzmüşük öz Allahımızdan,
Allah bizim Allahdı, keçər günahımızdan.

Bir quş kimi şeytan yuva qurmuş içimizdə,
Baxsan, görünür barmağı hər bir işimizdə.
Qardaş, niyə, yoldaş, niyə bəs özü görünmür?
Şeytana papaq tikmişik, buynuzu görünmür.
Hamıya kələk gəlməyə biz ustayıq, usta,
Hamıdan əzəl gəl kələyi qardaşa, dosta.
Dost özgə deyil, qorxma, keçər günahımızdan,
Çoxdandı ki, əl üzmüşük öz Allahımızdan.

De, bunca lotu meydana birdənmi çıxıbdı?
Göydənmi enib, yoxsa ki yerdənmi çıxıbdı?
Qoy kimsə baxıb pozmasın öz halını indi,
Əkdiklərimizdi, dəririk barını indi.
Öz bağımızın meyvəsidi, dadına bir bax,

Heyvasına, almasına, armuduna bir bax.
Nə səpmişiksə, o cücərir torpağımızdan,
Çoxdandı ki, əl üzmüşük öz Allahımızdan,
Allah bizim Allahdı, keçər günahımızdan.

...Allah bizim Allahdı, keçər günahımızdan,
Allah bizi saxlasın hələ sabahımızdan.
Bizdə bu sifət, de, nə sifətdi belə, qardaş?
Bir zərrə dəyişməz niyə ildən-ilə, qardaş?
Bir razı qalan varmı bugünkü işimizdən?
Gəl söhbət açaq şanlı, gözəl keçmişimizdən.
Ağız dolusu gör nə qədər dastanımız var,
Qarpız dolusu gör nə qədər bostanımız var.
Koroğlulara söz qoşub aşıq dilə gəlsin,
Eh!.. Top nədi, tüfəng nədi, mizrab ələ gəlsin.
Düşmənləri sazla qovarıq torpağımızdan,
Yetimlərə paltar tikərik bayrağımızdan,
Çoxdandı ki, əl üzmüşük öz Allahımızdan,
Allah bizim Allahdı, keçər günahımızdan...

## "BU MEYDAN, BU ŞEYTAN" TAMAŞASINDAN (1983)

Bəstəkar: Vasif Adıgözəlov

### Cənnət mahnısı

Ölüyükmü, diriyikmi?
İnsanıqmı, mələyikmi?
Bir kimsəyə gərəyikmi
bu cənnətdə, bu cənnətdə?

Soyuğu yox, istisi yox,
Naxoşu yox, xəstəsi yox,
Yananların tüstüsü yox
bu cənnətdə, bu cənnətdə.

Cəhənnəmə güldük, Allah,
"Cənnət" deyib gəldik, Allah,
Cənnət nədi, bildik, Allah,
bu cənnətdə, bu cənnətdə.

Quşlar ötür hər budaqda,
Nəğmə dinir hər dodaqda,
Bezdik çalıb-oxumaqdan
bu cənnətdə, bu cənnətdə.

Nə çiçəklər solmaq bilir,
Nə mələklər ölmək bilir,
Nə ürəklər sevmək bilir
bu cənnətdə, bu cənnətdə.

Çovğun ola, boran ola,
Bu cənnəti viran ola,
İnanma ki, qalan ola
bu cənnətdə, bu cənnətdə...

# Şeytan olmaq yordu məni
(şeytanın mahnısı)

Şeytan olmaq yordu məni,
aman Allah, bəsdi daha.
Yazıq canım lənətlənib
söyülməkdən bezdi daha.

Bu dünyada niyə axı
mən hamıya düşmən olum?
Niyə axı hər günahın
səbəbkarı tək mən olum?

Hamı şeytandı, şeytandı,
hərə bir biçimdə şeytan.
Hamının üstündə Allah,
hamının içində şeytan.

# Şeytan baba, döz bir az

(mələklərin mahnısı)

Şeytan baba, döz bir az,
Bir az güc ver səbrinə.
Qulluğunda durmuşuq,
Hazırıq hər əmrinə.

Öl desən, ölənik biz,
Qal desən, qalanıq biz.
Nökər desən, nökərin,
Qul desən, qulunuq biz.

Əyriliyə, bicliyə
Bu dünya meydan imiş.
Bu adamlar, heç demə,
Şeytandan şeytan imiş.

Buynuzunu gizlədib
Hamısı papaq altda.
Bicləri at üstədi,
Gicləri ayaq altda.

...Şeytan baba, döz bir az,
Bir az güc ver səbrinə.
Qulluğunda durmuşuq,
Hazırıq hər əmrinə.

# Bir də insan olmaram

(döyülmüş şeytanın mahnısı)

Yazıq canım, bu nə haldı düşmüsən?
Adamların arasından keçmisən,
Döyülmüsən, əzilmisən, şişmisən,
Öldür məni, bir də insan olmaram.

Dərdə-qəmə hesab yoxmuş, sən demə,
Adamlarda insaf yoxmuş, sən demə,
Adam çoxmuş, insan yoxmuş, sən demə, -
Öldür məni, bir də insan olmaram.

Odun olub ocaqlara çatıllam,
Qoyun olub sürülərə qatıllam,
Balıq olub dəryalara atıllam, -
Öldür məni, bir də insan olmaram!..

# Xeyri nədi?
(kasıbın mahnısı)

Bu dünyanın zatı qırıq,
Doğru nədi, əyri nədi?
Əynim-başım cırıq-cırıq,
Bəzənməyin xeyri nədi?

Dünya mənə əl vermədi,
Ağac əkdim, bar vermədi,
Kölgəsində yer vermədi,
Uzanmağın xeyri nədi?

Yenə gələr yanvar ayı,
Şaxta müftə, qar havayı,
Gündə yanıb bütün yayı
Qızınmağın xeyri nədi?

# Pul olsa

(sələmçinin mahnısı)

Qoy yağsın başıma bu daş, bu torpaq,
Dünyanın torpağı, daşı pul olsa.
Gecə də, gündüz də ağlaram, Allah,
Ağlaram, gözümün yaşı pul olsa.

Özümü alova-oda ataram,
Desələr "zəhər ud", zəhər udaram,
Dəryada balığı əlnən tutaram,
Göydə ovlayaram quşu – pul olsa.

Bu kənddə borcu var hər kəsin mənə,
Haqqı nə, haqqını verməsin mənə!
Qoy heç kəs "pis adam" deməsin mənə,
Pis adam olmaram, yaxşı pul olsa...

# Milçək

(polis rəisinin mahnısı)

Ötmə bülbül kimi, a milçək, dayan,
Lap tökdü zəhləmi vızıltın sənin.
Bu saat ovcumda sızıldayarsan,
Mənə ləzzət verər sızıltın sənin.

Tutub qanadını gərək qoparam,
Bir dayan, az belə inadın olsun.
Lap sənə təzədən qanad taxaram,
Təki qoparmağa qanadın olsun.

Birdən qapazlarıq, hamını birdən,
Hamı əlimizdə milçəkdi, milçək.
Qapazla, boğazla, buraxma əldən,
Qoluna qandal vur, gözünə mil çək, -
Milçək, milçək, milçək,
axx, yazıq milçək!..

# Nə kişisən, sən ay kişi

(arvadların mahnısı)

Nə kişisən, sən ay kişi,
Hayın gedib, vayın qalıb.
Nə ağzında dişin qalıb,
Nə canında heyin qalıb.

Səbrini bas, talan deyil,
Sənə bir qız gələn deyil,
Səndən ovçu olan deyil,
Oxun sınıb, yayın qalıb.

Gözün doymaz bunca sənin,
Palaz sənin, xalça sənin,
Bu dünyada təkcə sənin
Əzrayıldan payın qalıb...

# Quyruq

Bir gün quyruq taxar sənə bu dünya,
Sənin də dünyada olar quyruğun.
Bir sırtıq it kimi düşüb dalınca
Keçdiyin yolları yalar quyruğun.

Tülküyə dönərsən quyruq taxandan,
Min tənə görərsən yaddan, qohumdan,
Yalvarıb deyərsən: "Əl çək yaxamdan",
"Yox" deyib başını bular quyruğun.

Yağılar canına qəsd eləyəndə,
Səni dörd tərəfdən üstələyəndə,
Kimsə quyruğunu basdalayanda
Dönüb yenə səni çalar quyruğun.

Buraxmaz gündüzlər-gecələr səni,
Hamının gözündə heç edər səni,
Bir gün bu dünyadan köçürər səni,
Yenə bu dünyada qalar quyruğun...

# "MÜSYÖ JORDAN VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH" TAMAŞASINDAN (1988)

Bəstəkar: Cavanşir Quliyev

## Novruz gəlib, yaz gəlib

Novruz gəlib, yaz gəlib,
Bir əlində saz gəlib,
Bir əlində xonçası,
Açıb gülün qonçası,
Bülbülə avaz gəlib,
Novruz gəlib, yaz gəlib!

Kosa, sən də gəlsənə,
Gəlib salam versənə.
O torbanı ver görək,
Yumurtalar rəngbərəng.
Fındıq, badam, ya püstə,
Nə istəsən, baş üstə!
Hər biri can dərmanı,
Ver, dolduraq torbanı!

Novruza bax, yaza bax!
O əriyən buza bax!
Sellər axır şırhaşır,
Çöllər olur yamyaşıl.
Ot bitir, yemlik bitir,
Keçəl başda tük bitir.

Keçəl başın yağlasın,
Dəsmal verək, bağlasın.
Məclis quraq, oynasın,
Çırtıq vuraq, oynasın.
Əl çalaq, alqışlayaq,
Bu məclisi başlayaq...

# Adam otaqda darıxır

(Şərəfnisənin mahnısı)

Yaz gəlib, Allah, yaz gəlib,
Adam otaqda darıxır.
Budaqda quş haray salır,
Suda balıq da darıxır.

Qalıbdı göz gözə həsrət,
Əl ələ, diz dizə həsrət,
Qulaq bir xoş sözə həsrət,
Dil də, dodaq da darıxır.

Oduma su səpən gəlsin,
Ağlar gözdən öpən gəlsin,
Yarının könlünü alsın,
Desin, nahaqdan darıxır...

# Bu torpağı aparaydım Parisə

(Müsyö Jordanın mahnısı)

Aparmağa kaş ki gücüm çataydı,
Bu torpağı aparaydım Parisə.
Hər ağacı, hər çiçəyi, hər otu,
Hər yarpağı aparaydım Parisə.

Çəmən gördüm, utandırar xalçanı,
Buz bulaqdan dolduraydım dolçamı,
Göy çəməni, yaşıl bağı-bağçanı,
Buz bulağı aparaydım Parisə.

Danışmaqla bitən deyil söhbəti,
Ürəyimdən gedən deyil həsrəti,
Qarabağdı bu dünyanın cənnəti,
Qarabağı aparaydım Parisə.

# Aparar

(Müsyö Jordan haqqında mahnı)

– Qoyma, bu zalım oğlu
Aparmağa gəlibdi.
Ruhumuzu bədəndən
Qoparmağa gəlibdi...

Aparar ev-eşiyini,
Körpələrin beşiyini,
Lap axırda döşəyini
Altından çəkib aparar.

Ovçudu, dönməz ovundan,
Atı çəkər cilovundan,
Ocaq yansa – alovundan,
Odundan çəkib aparar.

Ələndikcə ələyindən,
Qurtarmarıq kələyindən,
Bu torpağı çiçəyindən,
Otundan çəkib aparar...

# Bütün arvadların fəryad əlindən
(arvadlar haqqında mahnı)

Əzəldən bic tutar işini arvad,
İlantək göstərməz dişini arvad,
Əlində oynadar kişini arvad,
Kişi oyuncaqdı arvad əlində.

Arvad olan yerdə tülkü yalandı,
Dilindən bal dama, bil ki, yalandı,
Balıqçı torundan toru yamandı,
Kim qaçdı, kim çıxdı arvad əlindən?!

Ya kifirdi, ya qəşəngdi, nə dəxli,
Ya tənbəldi, ya zirəkdi, nə dəxli,
Müsəlmandı, ya firəngdi, nə dəxli,
Bütün arvadların fəryad əlindən!..

# Kişilər cilovludu
(kişilər haqqında mahnı)

Cavan olsun, ya qoca,
Zərrəcə dəxli yoxdu.
Dünyada bir kişinin
Sərçəcə ağlı yoxdu.

Çoxdu küyü, hap-gopu,
Nəyi var dilindədi.
Amma yenə cilovu
Arvadın əlindədi.

Kişi azsa yolunu,
Ona toy tutar arvad.
Kişinin cilovunu
Vaxtında dartar arvad.

Kişilər cilovludu;
Xanı, bəyi, darğası...
Arvad ərin quludu,
Həm də ərin ağası!..

# Gözəl Paris, gözəl Paris!

(Müsyö Jordanın mahnısı)

Bu dünyanın gözü sənsən,
Gəlməyəsən gözə, Paris!
Şəhərlərin tuzu sənsən,
Gözəl Paris, gözəl Paris!

Hər daşı bir nəğmə deyən,
"Tüpür dərdə-qəmə" deyən,
Qocaldıqca köhnəlməyən,
Günü-gündən təzə Paris.

İşığını söndürməsin,
Düşmənini güldürməsin,
Allah səni çox görməsin
Bu dünyada bizə, Paris!..

# Gedim adam olum — gəlim

(Şahbaz bəyin mahnısı)

Gedim, barı bircə kərə
O Parisi görüm - gəlim.
Madamlara, müsyölərə
Gedim salam verim - gəlim.

Gözüm səni görsün, Paris,
Səndən alım dərsi, Paris,
Sənə deyim: "Mersi, Paris!",
Sənə qurban olum - gəlim.

Parisi görməsə adam,
Neyləsə, avamdı, avam,
Avamlığı atım tamam,
Gedim adam olum - gəlim...

# Cin gəlir

(Məstəli şahın mahnısı)

Cin gəlir ay, cin gəlir,
Bir deyirəm, min gəlir!

Paris, indi dayan-dur,
Üstünə kimlər gəlir?!
Uçurtmağa, yıxmağa
Div kimi cinlər gəlir.

Qan tökün, qan axıdın,
Çiyində baş qalmasın.
Vurun, yıxın, dağıdın,
Daş üstə daş qalmasın!

Cin gəlir ay, cin gəlir!
Bir deyirəm, min gəlir!..

# Yazıq Paris, yazıq Paris!

(arvadların ağısı)

Aman Allah, yaman oldu,
Paris uçdu, viran oldu,
Varı-yoxu talan oldu,
Yazıq Paris, yazıq Paris!..

Daş üstə daş saxlayan yox,
Bir nəfər baş saxlayan yox,
Ölənlərə ağlayan yox,
Yazıq Paris, yazıq Paris!..

Göydən gəldi bu qan-qada,
Paris hanı bu dünyada?!
Ara yerdə getdi bada,
Yazıq Paris, yazıq Paris!..

# Qoyma, Paris dağıldı

Dəymə, Paris dağıldı!
Qoyma, Paris dağıldı!
Evlər uçdu-töküldü,
Qaçan qaçdı-əkildi.
Qalan qaldı, heç oldu,
Nəyi vardı, puç oldu.
Ay Allah, bu nə işdi?
Paris nə günə düşdü?!
Qoyma, Paris dağıldı!
Dəymə, Paris dağıldı!..

Getmə, a bəy, sən də dur,
Gendə dayan, gendə dur!
Evin var, eşiyin var,
Parisdə nə işin var?
Orda dava-dalaşdı,
Burda dolmadı, aşdı.
Kabab desən, burdadı,
Qutab desən, burdadı.
Ye, neçə ki dişin var,
Parisdə nə işin var?!

A bəy, bir bu qıza bax,
Bu qızdakı gözə bax!
Göz deyil ki, çıraqdı,
Baxma, yandırdı-yaxdı.
Paris tarimar olsun,
Təki bu cür yar olsun!
A bəy, hər şey burdadı,
Kef burda, mey burdadı.
Burdadı, haaayy, burdadı!
Yas orda, toy burdadı!..

# Toy mahnısı

Əl çalın a, əl çalın,
Bəylə gəlin oynasın.
Hamı girsin ortaya,
Şirin-şirin oynasın.

Güllər açıb, güllənib,
Bülbülün səsi gəlsin.
Zurna zilə millənib,
Dumbulun səsi gəlsin.

Bir balaca nəfəs dər,
Yorulmusan, ay bala.
Tarçı, sən də dayanma,
Tarda bir az xırdala.

İslanarsan, ay uşaq,
Deyəsən, yağış yağır.
Yağış deyil, yaxşı bax,
Pul yağır, şabaş yağır.

Bir qızımız gəlindi,
Bir qızımız xırdadı.
Bir toyumuz indidi,
Bir toyumuz daldadı.

Ay Allah, hər gün bizə
Toy-bayram qismət eylə!
Bu toya, bu məclisə
Düşməni həsrət eylə!..

# Balıqçı, çək tilovunu

Balıqçı, çək tilovunu,
Tilova düşən deyiləm.
Sabılcada qızardılıb,
Qazanda bişən deyiləm.

Gör nə bicdi, bir buna bax,
Tilovunda qurduna bax.
Şeytan deyir: "Dadına bax,
Şişərsən..."
  Şişən deyiləm.

...Deyəsən, aldandım axı,
Deyəsən, tamaha düşdüm.
Allah kəssin bu tamahı,
Deyəsən, tilova düşdüm...

Balıqçı, yetiməm, yetim,
Dəymə mənə, burax gedim.
Nə sazanam, nə də kütüm,
Şahmayı, xəşəm deyiləm.

Balıqçı, səni yanasan,
Yanasan, yenə yanasan,
Bir də mən sənə aldansam,
Vallah, heç kişi deyiləm!..

# Bu kişinin beş oğlu var

Bu kişinin beş oğlu var,
Beşindən üçünü çıxın.
Əvvəlcə ən qoçağını,
Sonra ən bicini çıxın.

Ağıllısı qoyun qalsın,
Oxusun, beynini yorsun,
Dünyadan dərd satın alsın,
Xərcini-borcunu çıxın.

Qoyun qalsın əfəli də,
Sevsin bir şux gözəli də,
Yaşla dolsun gözləri də,
Gözünün yaşını çıxın.

Gəldik çatdıq ən gicinə,
Dünya yansa, nə vecinə?!
Qatın beşindən üçünə,
Çıxın, ən gicini çıxın...

# A zalım, insafın hanı?

Bu kişi hər yazdığını
Cümlə-cümlə üfürəcək.
Qapımızdan qovsaq onu,
Gözümüzə təpiləcək.

Kitabları boy sırası;
Yaşılı, ağı, qarası...
Yazdığını öz balası
Oxuyacaq, tüpürəcək.

...A zalım, insafın hanı?
Tulla qələmi, sən canın!..
Zibilləmə bu dünyanı,
Dalınca kim süpürəcək?!

# Hər şeyi üfürən kişi

Bu kişi ötürür qışı
Yayı üfürə-üfürə.
Udur içiyi-bişmişi
Suyu üfürə-üfürə.

Papirosu tərgidəndən
Yuxuda üfürüb çəkir.
Ah çəkəndə hərdən-hərdən
Ahı da üfürüb çəkir.

...Bu səhər yuxudan durub
Küçəyə çıxmaq istədi.
Ülgücü yüz yol üfürüb
Üzünü qırxmaq istədi.

Dikəlib baxmaq istədi
Divardakı güzgüsünə.
O güzgüdən tüklü üzü
Qəfil tüpürdü üzünə...

# Sifətim könlümə yatmır

Adam gərək hərdən durub
özünü salsın yadına.
Gözünü yumub
üzünü-gözünü salsın yadına.

Bu nə işdi, desin, Allah,
Sifətim könlümə yatmır.
Elə bil ki sifətimdən
Nəsə düşüb, nəsə çatmır.

Qayıtsın gəldiyi yolu,
Axtarsın düşüb itəni.
Bu uzun yollarda barı
İtirməsin sifətini...

# Bir üzü örtülü, bir üzü açıq

Bəlkə, hər adamın iki üzü var;
Bir üzü örtülü, bir üzü açıq.
Dünyaya baxmağa iki gözü var;
Bir gözü örtülü, bir gözü açıq.

Dünyaya baxanın gözü nə gördü?
Dünyanın iki cür üzünü gördü;
Bir üzü xeyirdi, bir üzü şərdi,
Xeyir üzü örtülü, şər üzü açıq.

Allah həm yaxşını, həm pisi görür,
Görür nə kökdədi Yer üzü, görür,
Biz onu görmürük, o bizi görür;
Göy üzü örtülü, Yer üzü açıq...

1973

# Mən bura özümü görməyə gəldim

Mən bu ağlamalı, mən bu gülməli
dünyaya ağlayıb-gülməyə gəldim.
Bir dünya tapılmaz bundan ölməli,
mən də tamahlanıb ölməyə gəldim.

Hələ bu dünyada izim yoxuydu,
Hər şeyi görürdüm, gözüm yoxuydu,
Hələ ruhum vardı, özüm yoxuydum,
mən bura özümü görməyə gəldim.

Mənə də yer çatar, dünya dar deyil,
Biz balıq deyilik, dünya tor deyil,
"Allah göydən baxır, Allah kor deyil!.." -
sizə bunu xəbər verməyə gəldim.

1973

# Qalsın

İlahi, kaş bu dünyada
Haqq yolunu tutsun adam.
Çaşıb ayrı yolla gedən
Yollar ayrıcında qalsın.

Kim yalan söz deyəcəksə,
Əyriyə düz deyəcəksə,
Yaxşıya pis deyəcəksə,
Dilinin ucunda qalsın.

Ucaları yendirməyək,
Kim susursa, dindirməyək,
Çıraq yansa, söndürməyək,
İşığı içində qalsın.

1973

# Olsa

Gün batar, çıraq tapılmaz,
Söz gələr, varaq tapılmaz,
Saçın var - daraq tapılmaz,
Saç tapılmaz - daraq olsa.

Hər dərdi ata bilərsən,
Göydə quş tuta bilərsən,
Rahatca yata bilərsən,
Əgər bəxtin oyaq olsa.

Haqq sözə nökərik, nökər,
Biz çəkən yükü kim çəkər?
Qanımız halaldı, əgər
Köynəyimiz bayraq olsa.

*1973*

# Nə kədərli, nə şən oldum

Nə kədərli, nə şən oldum,
Tənələrə nişan oldum,
Getməyə peşiman oldum...
- ...gəlməyə də, gəlməyə də...

Güllərim yoluq-yoluqdu,
Əllərim soyuq-soyuqdu,
Ağlamağa səbəb yoxdu...
- ...gülməyə də, gülməyə də...

Adımızı kimsə öyməz,
Qapımızı kimsə döyməz,
Dünya yaşamağa dəyməz...
- ...ölməyə də, ölməyə də...

1973

# Su var daşın canında

Su var daşın canında,
Qaranlıqda işıq var.
Hər ağacın canında
Bir tabut, bir beşik var.

Bu dünyanı kim açdı?
Görən cumdu, daraşdı,
Hamı ac-yalavacdı,
Hər əldə bir qaşıq var.

Bu, aşığı, mollası,
Bu, qarğışı, duası,
Kiri, atam balası,
Söymə, arvad-uşaq var...

# Qaçmağa bir yerimiz yox

Qaçmağa bir yerimiz yox,
Bu dünyadan hara gedək?
Əlacımız bircə budu;
Bu dünyayla yola gedək.

Gah arxaya, gah qabağa
Dönə-dönə, baxa-baxa,
"Sağ" desələr, gedək sağa,
"Sol" desələr, sola gedək.

Qışqırıb söyən olmasın,
Saxlayıb döyən olmasın,
Kaş bizə dəyən olmasın,
Sağ-salamat gora gedək...

## Gecədi

Səhər yuxudan oyanıb
Görürəm, yenə gecədi.
Məndən o yana gün doğub,
Məndən bu yana gecədi.

Adamlar da hələ yatır,
Yuxu görə-görə yatır,
Yatanlar ki belə yatır,
Çətin oyana, gecədi.

Sil gözüm yaşını, yatım,
Bir azca qaşınım, yatım,
Qoy atım başımı, yatım,
Yatım, ay ana, gecədi...

# Gecə keçib, sübh açılıb

Gecə keçib, sübh açılıb,
Bu çırağın xəbəri yox.
Son yarpağı yel uçurub,
Bu budağın xəbəri yox.

Haçandı boynunu burub
Qapıda bir qonaq durub,
Bu qapını fələk vurub,
Bu qonağın xəbəri yox.

Dağ dağa baxar uzaqdan,
Xəbəri yox dağın dağdan,
Xəbəri yox solun sağdan,
Soldan sağın xəbəri yox.

Uzaqdı kənddən-şəhərdən,
Uzaqdı dərddən-kədərdən,
Yaratdığı bəndələrdən
O Allahın xəbəri yox.

# Kölgələr ölkəsində

Kölgələr ölkəsindəyik,
Kölgələr ölkəsində.
Biz ağac kölgəsindəyik,
Siz ata kölgəsində.

Başda qızıldan tacları,
Atalar baş kəsirlər.
Amma bizim ağacları
Yavaş-yavaş kəsirlər.

Siz -
bir cürə kefdəsiniz,
Biz -
bir cürə kefdəyik.
Siz -
biz tikən evdəsiniz,
Biz -
siz sökən evdəyik.

Allah bizi lap bundan da
pis olmaqdan saxlasın.
Allah bizi bir gün dönüb
siz olmaqdan saxlasın.

Pul! Pul! Pul!..

Ağzın açan "pul" deyir,
Pul kimə lazım deyil?..

Hamını bir dərd basıb,
Hamı "pul" deyib ağlar.
Gül baha, bülbül kasıb,
Bülbül "gül" deyib ağlar.

Sil gözünü, ay yazıq,
Pul dolu ciblərə bax.
Pulla gələn keflərə,
Pul yıxan evlərə bax.

Pulun yoxsa cibində,
Yoxdu səndən axmağı.
Öyrən daşdan, dəmirdən,
Hər cürə zir-zibildən,
Poxdan pul çıxarmağı,
Yoxdan pul çıxarmağı.

Pul! Pul! Pul!..

# AC GÜNLƏRİN ÜÇ MAHNISI

## 1. Bu süfrənin acları

Dərdini kim çəkəcək,
Sənə kim ağlayacaq?
Bu süfrədə bir tikə
Sənə pay saxlayacaq?

"Dərd" desən, hamı qorxur;
dərd çəkməyə tabı yox.
Bu süfrədə çoxunun
qaşığı var, qabı yox.

Səni yaxın buraxmaz
Bu süfrənin acları;
Bu kasıb qardaşların,
Bu yazıq bacıların.

Utan gözün yaşından,
hamı səndən qorxdu, get.
Bu süfrənin başında
sənin yerin yoxdu, get!..

## 2. Quşlar ölür acından

Sovulubdu ağaclar,
quşlar ölür acından.
Tək bircə əlacın var;
asıl dar ağacından.

Göydə o yan-bu yana
yellənər ayaqların.
Yığışar dörd dövrənə
yurdun ac uşaqları.

Bir daş atar hər uşaq,
dəyər, sinəndən dəyər.
Bu yurdun bir ac quşu
gözlərini dənləyər.

Bəlkə, uşaqların da
iştahından keçərsən?!
Hamını bağışlayıb,
günahından keçərsən.

Daha səndən yeməli
nə var bu ac ölkədə?
Bu yurdun ən yeməli
meyvəsisən bəlkə də...

# 3. Qılınclar da paslanıb

Heç kəs mahnı oxumur,
Mahnılar da tozlanıb.
Aclar qılınca cumur;
Qılınclar da paslanıb.

Göz yaşı ki quruyub,
Gözlər niyə islanıb?
Bizi kimdən qoruyur?!
Qılınclar da paslanıb.

Bezdik, Allah, bir əlac!
Ölüm harda gizlənib?
Cəlladlar da acdı, ac,
Qılınclar da paslanıb...

*1991*

# Bu doğan günün altında

Yox, deyəsən, qoçaq çıxdım,
Qorxum-hürküm nahaq çıxdı,
Bu qış da ötdü, –
sağ çıxdım
Bu doğan günün altında.

Dilimdə sözlər əriyir,
Gözümdə gözlər əriyir,
Gün vurur, qızlar əriyir
Bu doğan günün altında.

Qarı da gör, buzu da gör,
Yaxşını da, pisi də gör,
Allah, hərdən bizi də gör
Bu doğan günün altında...

1975

# Səhər nəğməsi

Günəş doğdu Yer üzünə,
Üzlər işıqlandı, aman.
Bu səhərə nəğmə dedim,
Sözlər işıqlandı, aman.

Pis adamın yuxusu yox,
Yapışmağa yaxası yox,
Yaxşıların qorxusu yox,
Pislər işıqlandı, aman.

...Bir gül düşdü hərəsinə,
Ətir qondu nəfəsinə,
Lampaların əvəzinə
Qızlar işıqlandı, aman!..

*1975*

# Kağızdan gül kəsən qoca

Kağızdan gül kəsən qoca,
Neynirsən belə gülləri?
Yüz olsa da, dəyməz axı
Bir diri gülə güllərin.

Nə qış bilər, nə də ki yaz,
Bir bülbülə satmadı naz,
Üstünə kəpənək qonmaz,
Taxılmaz telə güllərin.

O gülləri gəl ver mənə,
Qəm güc gəlsə əgər mənə,
Ağlasam, dəsmal yerinə
Gözümü silə güllərin.

Gülləri vermə, yox, dayan,
Keçmə varından-yoxundan,
Qorxuram yana ahımdan,
Çevrilə külə güllərin...

1975

# Mənə qucaq-qucaq gül gətirirdin

Mənə qucaq-qucaq gül gətirirdin,
"Sevirəm" deyirdin dönə-dönə sən.
De, məni bəs niyə qoymusan indi
Bu kağız güllərin ümidinə sən?

Bu kağız gülləri bağrıma basdım,
Verdim o güllərə öz nəfəsimi.
Bu kağız güllərin üstünə yazdım
Ölən sevgimizin son nəğməsini.

Bu büllur güldanda su niyə yoxdu?
Buztək donub-qalıb sükut içində.
Bu büllur güldanın üzü soyuqdu,
Yatır ölü güllər tabut içində.

Yağan yağışları kiritmək olmaz,
Çatdı ömrümüzün payız günləri.
Yüz yol nəfəs versəm, diriltmək olmaz
Bu ölü gülləri, kağız gülləri.

# İki gündü yağış yağır

İki gündü yağış yağır,
Sabah da yağdı, bəlkə.
Gün çıxanda açılır
Adamın baxtı, bəlkə.

Gözlərin nə yaman baxır,
Bu nə sifətdi, qardaş?!
Görmürsənmi yağış yağır,
Əcəb fürsətdi, qardaş.

Utanmaqdan keçib daha,
Özümüzü boğmayaq.
Çıxaq, duraq yağış altda,
Bir doyunca ağlayaq...

## Bazar nəğməsi

Bazar, bazar, bazardı;
Xəsislərdən bezardı.
Xəsis olma, ay kişi,
Xəsislik də azardı.

Müştəri, ay müştəri,
Qızıldandı dişləri.
Əlin cibində olsun,
Düzəldərik işləri.

Bazar, bazar, bazardı;
Alma satan söz aldı.
Alma yeyən qızın da
Yanaqları qızardı.

Müştəri, ay müştəri,
Gümüşdəndi dişləri.
Gedək mənə elçi ol,
Düzəlt bütün işləri.

Bazar, bazar, bazardı;
Qənd istədim, duz aldım.
Qız yiyəsi bozardı,
Yamanca da qız aldım!..

Müştəri, ay müştəri,
Sümükdəndi dişləri.
Elçiliyin cəhənnəm,
Xarabladın işləri.

Bazar, bazar, bazardı;
Qız getdi, qarpız aldı.
Alma satan neyləsin,
Ev-eşiyi toz aldı.

Müştəri, ay müştəri,
Yox ağzında dişləri.
Öz canımız sağ olsun,
Düzəldərik işləri.

1975

# Hər şey mən deyən olsaydı

Bir yaxşı atım olsaydı,
Bir qıvraq, cəld kəhərim -
At belində keçərdi
Hər axşamım, səhərim.

Bir yaxşı itim olsaydı,
Qurd ağızlı bir itim -
Neyləyirdim qapıdakı
Bu qıfılı, kilidi?

Bir yaxşı bağım olsaydı,
Yer qazıb tər tökərdim.
Orda meyvə ağacı yox,
Təkcə güllər əkərdim.

Hər şey mən deyən olsaydı,
Nəyim olmazdı, nəyim?..
Qarajımda qara "Volqa"m,
Tövləmdə ağ eşşəyim.

- Nə yatmısan, dur, ay uşaq,
Gün yarıdan keçibdi.
Yenə qaldın yuxuya, bax,
Yenə dərsə gecikdin...

1975